AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR SEKTORUN ANTİİNHİSAR TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Günel Rəhim qızı Osmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2025

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Məhərrəm Cəlal oğlu Hüseynov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Aygün Eldar qızı Quliyeva

iqtisad üzrə fəlsəfə doktoru, dosent
Elman İbiş oğlu İbişov

iqtisad üzrə fəlsəfə doktoru
Səadət İntiqam qızı Hacıyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
Ziyad Əliabbas oğlu Səmədzadə

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Samirə Yaşar qızı Məmmədova

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
Əməkdar kənd təsərrüfatı işçisi
İslam Hacı oğlu İbrahimov

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Son illər aqrar iqtisadiyyatda baş verən dəyişikliklər onun sahələrinin fəaliyyətinin təşkilati, iqtisadi, maliyyə və hüquqi şərtlərinin əsaslı şəkildə dəyişdirilməsi ilə nəticələnmişdir. Bu istiqamətlərdə transformasiya prosesləri təsərrüfat subyektlərinin fəaliyyətinin əlaqələndirilməsi zərurətini şərtləndirir. İqtisadi subyektlərin fəaliyyətinin əlaqələndirilməsi, ilk növbədə makro və mikroiqtisadi səviyyədə rəqabət prinsiplərinin dövlət tərəfindən qorunması mexanizmlərinin yaradılmasına yönəlir. Rəqabət və inhisar arasında səmərəli sosial münasibət istiqamətlərinin formalaşdırılması və həyata keçirilməsi dövlət tərəfindən antiinhisar siyasəti çərçivəsində reallaşdırlır.

İnhisarlaşmanın artması cəmiyyətin tənzimləyici təsirinin azaldığı şəraitdə iqtisadi sistemin inkişafına ciddi şəkildə mənfi təsir edir. İnhisarçılıq istehsal ehtiyatlarından tam istifadə olunmaması, sabit maliyyə vəziyyətinin yaradılması imkanının və istehsalın modernləşdirilməsinə ehtiyacın olmaması və ya aşağı olması ilə özünü daha qabarıq şəkildə biruzə verir. Belə vəziyyət aqrar sahədə inhisarçılığın yaranması ilə yanaşı kənd təsərrüfatı, emal və xidmət müəssisələri arasında iqtisadi maraqların qarşıdurmasının artmasına gətirib çıxarır. Bu şəraitdə antiinhisar tənzimləməsi kənd təsərrüfatında fəaliyyət göstərən subyektlərin inhisarçı təsirlərdən qorunmasına, eləcə də rəqabətin inkişafına yönəlir. Qeyd edilənlər aqrar subyektlər arasında inhisarlaşma səviyyəsinin qiymətləndirilməsinə, inhisarçılıq proseslərinin qarşısının alınması üçün antiinhisar tənzimlənməsinin forma və üsullarının, rəqabətin inkişaf istiqamətlərinin əsaslandırılmasına elmi yanaşmaların hazırlanması zərurətini yaradır və antiinhisar tənzimlənməsinin praktiki baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini təsdiq edir.

Məlumdur ki, antiinhisar orqanları müvafiq qanunvericilik bazasına əsaslanmaqla aqrar iqtisadiyyatda inhisarçılığın baş verməməsi və azaldılması üçün zəruri tədbirlər həyata keçirir. Bu çərçivədə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə *"kənd təsərrüfatı və ərzaq məhsulları bazarında, tədarük prosesində*

haqsız rəqabət meyillərinin qarşısının alınması məqsədi ilə tədbirlərin gücləndirilməsi"ni[1] nəzərdə tutur. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi *"rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti tədbirləri"ni, "rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət"i*[2] müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyasına görə *"Azərbaycan dövləti iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir"*[3].

Qeyd etmək lazımdır ki, antiinhisar siyasətinin xüsusiyyətləri onun aqrar iqtisadiyyatın transformasiyasında rolunu və əhəmiyyətini müəyyən edir. Ona görə də antiinhisar siyasətinin məqsədləri iqtisadi reallıqlara uyğun olaraq rəqabətin qorunması tədbirlərinin və antiinhisar tənzimlənməsinin xarakterini dəyişir. Antiinhisar fəaliyyətində rəqabətin inkişafını və inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılmasını şərtləndirən amillər antiinhisar tənzimlənməsinin nəticələrinin qiymətləndirilməsi zərurətini ortaya qoyur. Məhz inhisarlaşmış aqrar strukturların fəaliyyəti şəraitində yaranan problemlərin həlli üçün məqsədyönlü antiinhisar tənzimlənməsi tədbirləri ilə bağlı prioritetlər müəyyən edilir. Antiinhisar tənzimlənməsi, həyata keçirilən tədbirlərin effektivliyini müəyyən edən xüsusiyyətlərin müxtəlifliyi ilə də özünü göstərir. Antiinhisar tənzimlənməsi eyni zamanda aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin yeni forması kimi qəbul edilir. Buna uyğun olaraq rəqabətin müvafiq qanunvericilik sənədlərinə əsaslanmaqla dövlət tərəfindən qorunmasının hüquqi təminatı rəqabət mühitinin inkişafını təmin etməsinə baxmayaraq, aqrar subyektlər tərəfindən onlara adekvat reaksiya verilməsi hələ də kifayət səviyyədə deyildir. Ona görə də rəqabətin qorunması problemlərinin həlli məqsədilə antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsinin elmi və nəzəri baxımdan əsaslandırılmasına ehtiyac var. Bununla yanaşı, kənd təsərrüfatı istehsalının inhisarlaşdırılması səviyyəsinin və nəticələrinin qiymətləndirilməsi ilə bağlı müəyyən metodoloji

[1] "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.

[2] Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. 8 dekabr 2023-cü il.

[3] Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.

problemlərin həllinin vacibliyi hələ də özünü göstərir. Qeyd edilənlər aqrar sahənin antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi problemlərinin tədqiqinin əhəmiyyətni və aktuallığını müəyyən edir.

Aqrar sahənin antiinhisar tənzimlənməsi, onun təkmilləşdirilməsi və rəqabətin inkişafı problemlərinin tədqiqi iqtisadçı alimlərin diqqətində olan mühüm məsələlərdəndir. Bu istiqamətdə respublika iqtisadçıları arasında aşağıdakıları qeyd etmək olar: Z.Ə.Səmədzadə, E.A.Quliyev, İ.H.Alıyev, B.X.Ataşov, V.A.Abbasov, İ.H. İbrahimov, Ə.İ. Bayramov, M.C. Hüseynov, R.Z.Hüseyn, S.T.Hacıyeva. və s.

Xarici ölkə alimlərindən M.Porter, D.Rikardo, A.Smit, C.Robinson, F.Xayek, A.Çarikovskiy, D.Antipova, S.Maksimov, S.Puzırevskiy, M.Şişkin, K.Vasilyeva və başqaları bu istiqamətdə geniş araşdırmalar aparmışlar.

Antiinhisar tənzimlənməsinin iqtisadi siyasətin tərkib hissəsi olmasına baxmayaraq, aqrar iqtisadiyyatda dövlətin antiinhisar funksiyasını yerinə yetirməsi problemlərinin öyrənilməsinə və hökumətin bununla bağlı proseslərə real vəziyyətə uyğun şəkildə müdaxiləsinə yönəlmiş araşdırmalar kifayət dərəcədə deyildir. Ümumiyyətlə, inhisar və rəqabət münasibətlərindən irəli gələn antiinhisar tənzimlənməsi məsələləri, az öyrənilən sahələrdən biri olaraq qalmaqdadır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqat obyekti aqrar sahə və bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri müyyən edilmişdir. Tədqiqatın predmetini aqrar sahənin antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi aqrar sahənin antiinhisar tənzimlənməsi mexanizminin formalaşmasının nəzəri aspektlərini, aqrar sahənin əsas iqtisadi göstəricilərini araşdırmaqla antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərini aşkara çıxarmaqdan, bununla bağlı təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Bu istiqamətdə aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- aqrar sahədə antiinhisar tənzimlənməsinin nəzəri əsasları ilə bağlı elmi müddəaların araşdırılması;
- antiinhisar fəaliyyətinin iqtisadi aspektlərinin və metodlarının tədqiqi;

- aqrar sahənin antiinhisar tənzimlənməsinin xüsusiyyətlərinin və beynəlxalq təcrübədən istifadə imkanlarının müəyyən edilməsi;
- aqrar sahədə istehsal və emal sahələrinin iqtisadi inkişaf səviyyəsinin tədqiqi;
- istehsal və emal sferasında antiinhisar fəaliyyətinin təhlili;
- istehsal və emal sferasında qarşılıqlı fəaliyyətin səmərəli təşkili və inteqrasiya münasibətlərinin inkişafı istiqamətlərinin müəyyən edilməsi;
- aqrar sahədə antiinhisar tənzimlənməsinin effektivlik meyarlarının qiymətləndirilməsi;
- istehsal və emal sferasında inteqrasiya münasibətlərinin inkişafı ilə bağlı prioritetlərin müəyyən edilməsi;
- aqrar sahədə rəqabət mühitinin yaxşılaşdırlması istiqamətlərinin tədqiqi;
- aqrar təsərrüfat subyektlərinin rəqabət qabiliyyətlilik strategiyasının hazırlanmasının antiinhisar tənzimlənməsindəki rolunun vacibliyi;
- aqrar sahədə inhisarçılığın qarşısının alınması və antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması.

Tədqiqat metodları. Dissertasiya işində aşağıdakı metodlardan istifadə edilmişdir: analiz, sintez, analitik təhlil, iqtisadi-statistik, müqayisəli təhlil. Dissertasiya işinin yerinə yetirilməsində müvafiq qanunvericilik sənədlərindən və dövlət proqramlarından, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarından istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar: Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- aqrar sahədə antiinhisar tənzimlənməsinin formalaşması ilə bağlı elmi-nəzəri baxışların, konseptual müddəaların, antiinhisar fəaliyyətinin hüquqi aspektlərinin və rəqabət mühitinin formalaşadırılması xüsusiyyətlərinin ümumiləşdirilməsi zəruridir;
- kənd təsərrüfatı istehsalının inkişafında antiinhisar fəaliyyəti –

rəqabət mühitinin yaradılması, antiinhisar qanunvericiliyinə riayət edilməsinə dövlət nəzarəti, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və ya aradan qaldırılması tədbirlərinin əlaqələndirilməsi və onların aqrar sahənin dayanıqlığının təmin olunmasındakı rolunun əsaslandırılmasına ehtiyac var;

- istehsal və emal sahələrinin iqtisadi inkişaf səviyyəsinin tədqiqinə əsaslanaraq, onlar arasında inteqrasiya münasibətlərinin inkişaf prioritetlərinin əsaslandırılması, müasir dövrün tələbləri baxımından zəruridir;
- aqrar sahə və emal sənayesi arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsinin qiymətləndirilməsi və antininhisar tənzimlənməsinin zəruriliyinin əsaslandırılması hazırda xüsisi əhəmiyyətə malikdir;
- istehsal və emal sferasında qarşılıqlı fəaliyyətin səmərəli təşkili mexanizmlərinin araşdırlması, həmçinin antiinhisar tənzimlənməsinin effektivlik meyarlarının qiymətləndirilməsi əsasında inteqrasiya münasibətlərinin alternativ istiqamətlərinin ümumiləşdirilməsi vacibdir;
- aqrar sahədə inhisarçılıq fəaliyyətinin aradan qaldlrılması, rəqabət mühitinin yaxşılaşdırlması, həmçinin inteqrasiya münasibətlərinin inkişaf istiqamətlərinin müəyyən edilməsi ilə bağlı antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin əsaslandırılması həlli vacib məsələlərdəndir.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- aqrar sahədə antiinhisar tənzimlənməsinin konseptual aspektlərinə əsaslanaraq antiinhisar fəaliyyətinin hüquqi və rəqabət mühitinin təşkilati-iqtisadi əsasları ümumiləşdirilmişdir;
- kənd təsərrüfatı istehsalının xüsusiyyətləri nəzərə alınmaqla antiinhisar tədbirlərinin zəruriliyi və aqrar sahənin inkişafındakı rolu əsaslandırılmışdır;
- aqrar sahədə istehsal və emal sahələrinin əlaqələri çərçivəsində qarşılıqlı maraqlar nəzərə alınmaqla inteqrasiya münasibətlərinin inkişaf prioritetləri əsaslandırılmışdır;

- aqrar sahə və emal sənayesi arasında qarşılıqlı əlaqələrin qiymətləndirilməsi əsasında antininhisar tənzimlənməsinin daha effektiv mexanizmlərdən istifadə imkanları müəyyən edilmişdir;
- istehsal və emal sferasında qarşılıqlı fəaliyyətin səmərəli təşkilinin və inteqrasiya münasibətlərinin alternativ istiqamətləri göstərilmişdir;
- aqrar sahədə rəqabət mühitinə təsir edən amillərin araşdırlmasına əsaslanaraq onun yaxşılaşdırlması istiqamətləri və rəqabət strtegiyasının mövcud iqtisadi şərait nəzərə alınmaqla prioritetləri müəyyən işlənilmişdir;
- aqrar sahədə inhisarçılığın qarşısının alınması və təsirinin yumşaldılması məqsədilə antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində prioritetlər müəyyən edilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Aparılan tədqiqatda əldə edilən nəticələrin nəzəri əhəmiyyəti aqrar sahənin antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi və rəqabət mühitinin təmin edilməsi ilə bağlı nəzəri və metodoloji yanaşmaların, habelə kənd təsərrüfatında inteqrasiya münasibətlərinin inkişaf mexanizmi ilə bağlı elmi aspektlərin ümumiləşdirilməsində, inhisarçılığın qarşısının alınması məqsədilə antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi üzrə prioritetlərin elmi cəhətdən əsaslandırılmasında əhəmiyyətli rol oynamasında öz əksini tapır. Əsas elmi müddəalar və əldə olunan nəticələrdən, aqrar sahədə antiinhisar tənzimlənməsi mexanizminin inkişaf etdirilməsinə dair araşdırmalarda nəzəri və metodoloji əsas kimi istifadə edilə bilər.

Dissertasiya işinin praktiki əhəmiyyəti aqrar sahənin antiinhisar tənzimlənməsi ilə bağlı konsepsiyaların, müxtəlif elmi müddəaların nəticə və təkliflərin hazırlanmasında və təcrübədə istifadə imkanlarının formalaşmasında özünü göstərir. İrəli sürülən təkliflərdən aqrar sahədə fəaliyyət göstərən subyektlərin səmərəli fəaliyyəti üçün rəqabət mühitinin formalaşdırılması və antiinhisar mexanizminin təkmilləşdirilməsi məqsədilə istifadə edilə bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti

yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 7 məqalədə (2-i xaricdə olmaqla) və 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Aqrar sferada innovasiyalardan istifadənin rəqabət qabiliyyətli istehsalda rolu" (Gəncə, 2019), "Aqrar sahə subyektlərinin rəqabət potensialının yaxşılaşdırılması istiqamətləri" (Bakı, 2022), "Институциональные основыантимонополной политики в аграрной сфере" (Рязань, 2023), "Aqroemal sənayesində inhisarçılığın aradan qaldırılması istiqamətləri" (Gəncə, 2025) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin "Aqrar sənaye sferasında inteqrasiya münasibətlərinin inkişaf mexanizmi" (Bakı, 2016), "Aqrar sferada inhisarçılığın aradan qaldırılmasının hüquqi aspektləri" (Gəncə, 2019), "Aqrar sferada iqtisadi subyektlərin qarşılıqlı əlaqələrinin inkişaf mexanizmi" (Gəncə, 2021), "Kənd təsərrüfatında rəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması yolları" (Gəncə, 2021), "Эффективность регулирования монополистической деятельности в аграрной сфере" (Москва, 2022), "Aqrar sahədə inhisarçılığın azaldılmasına yeni yanaşmaların əsas cəhətləri" (Bakı, 2025), "Development of Effective Financial Strategies for Long-Term Economic Viability" (Amman, 2025) adlı məqalələri dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı: Azərbaycan Dövlət Aqrar Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi. Dissertasiya işi girişdən, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (12663 işarə), I fəsil (60322 işarə), II fəsil (59235 işarə), III fəsil (71854 işarə), nəticə (11899 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (15826 işarə) üzrə ümumi həcm 243397 işarədir. Tədqiqat işində 14 cədvəl, 2 şəkil verilmiş, istifadə edilən ədəbiyyat siyahısında 123 adda mənbə göstərilmişdir. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, qrafiklər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 215973 işarədir.

MÜNDƏRİCAT

GİRİŞ

I FƏSİL. AQRAR SAHƏDƏ ANTİİNHİSAR TƏNZİMLƏNMƏSİNİN ELMİ-NƏZƏRİ ASPEKTLƏRİ

1.1. Antiinhisar tənzimlənməsinin elmi-nəzəri əsasları
1.2. Antiinhisar tənzimlənməsinin iqtisadi əsasları
1.3. Aqrar sahənin antiinhisar tənzimlənməsinin xüsusiyyətləri və beynəlxalq təcrübə

II FƏSİL. AQRAR SAHƏNİN İNKİŞAF SƏVİYYƏSİ VƏ ANTİİNHİSAR TƏNZİMLƏNMƏSİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Aqrar sahədə istehsal və emal sahələrinin iqtisadi inkişaf səviyyəsi
2.2. İstehsal və emal müəssisələri arasında inteqrasiya münasibətlərinin təhlili
2.3. Aqrar sahədə antiinhisar tənzimlənməsinin effektivlik meyarlarının qiymətləndirilməsi

III FƏSİL. AQRAR SAHƏDƏ İNHİSARÇILIQ FƏALİYYƏTİNİN ARADAN QALDIRILMASI VƏ ANTİİNHISAR TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

3.1. İstehsal və emal sferasında inteqrasiya münasibətlərinin inkişafı
3.2. Aqrar sahədə rəqabət mühitinin yaxşılaşdırlması
3.3. Aqrar təsərrüfatçılıq subyektlərinin rəqabət qabiliyyətlilik strategiyasının hazırlanması
3.4. Aqrar sahədə antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi

NƏTİCƏ
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"Aqrar sahədə antiinhisar tənzimlənməsinin elmi-nəzəri aspektləri**" adlı birinci fəslində antiinhisar tənzimlənməsi ilə bağlı nəzəriyyələr, antiinhisar tənzimlənməsinin iqtisadi əsasları və metodları, aqrar sahənin antiinhisar tənzimlənməsinin xüsusiyyətləri və beynəlxalq təcrübə məsələləri şərh edilmişdir.

Qloballaşma mühitində rəqəmsal texnologiyaların inkişafı ilə əlaqədar olaraq iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə innovasiyaların rolunun güclənməsi iqtisadiyyatın strukturunda, məhsul istehsalının və istehsal prosesində istifadə olunan texnologiyaların coğrafiyasında əhəmiyyətli dəyişikliklərə, əmtəə bazarlarında təklif olunan məhsulların dövriyyəsi prosesinin keyfiyyətcə təkmilləşməsinə gətirib çıxarmışdır. Bununla əlaqədar olaraq son illərin tendensiyası iqtisadi münasibətlərin transformasiyasına gətirib çıxarmışdır. Belə şərait rəqabətin kəskinləşməsini şərtləndirməklə iqtisadi subyektlərin fəaliyyəti üçün bərabər rəqabət şəraitinin yaradılmasını və antiinhisar tənzimlənməsinə yeni yanaşmaların formalaşdırılmasını tələb edir.

Antiinhisar tənzimlənməsinin formalaşdırılmasına sistemli yanaşmalar iqtisadi inkişaf tarixinin, təcrübəsinin və perspektivlərinin nəzərə alınmasının vacibliyini önə çəkir. Fundamental iqtisadi təlimlərə əsaslanan, eyni zamanda müasir tendensiyaları və konsepsiyaları özündə əks etdirən nəzəriyyələr antiinhisar tənzimlənməsinin əsas prinsiplərini, dəyərlərini və fəlsəfəsini, onun qanunvericilik sistemi ilə əlaqəliliyini şərtləndirir.

Antiinhisar fəaliyyətinin klassik modeli iqtisadiyyatın effektiv şəkildə tənzimlənməsinə universal yanaşmaları əhatə edir. Ənənəvi yanaşmaların əsas problemlərini onunla xarakterizə etmək olar ki, mal və xidmətlər təklif edən çoxsaylı subyektlər və onların istehlakçıları arasındakı əlaqələrin tənzimlənməsi, əsasən konkret iqtisadi proseslər daxilində hərəkət edir. Bu da öz növbəsində antiinhisar

tənzimlənməsinin məqsədlərinin dəyişdirilməsi ilə nəticələnir. Bu çərçivədə inhisarların iqtisadi fəaliyyət sahələrinə təsirinin qeyri-müəyyən xarakter daşıdığını qeyd etmək olar. Nəticədə iqtisadi fəaliyyət sahələri əmtəə və xidmətlərin tədarükünü kifayət səviyyədə təmin edə bilmir və iqtisadiyyatın bütün sahələrində inhisarçılıq meylləri güclənir. Ona görə iqtisadiyyatın bütün sahələrində antiinhisar tənzimlənməsi ilə bağlı yanaşmalara xüsusi üstünlük verilir. Lakin bu yanaşmalar heç də həmişə effektiv olmur və rəqabət mühitinin inkişaf etdirilməsinə ciddi təsir edə bilmir.

İnhisarçılıq hallarında inhisarçı subyektlər yüksək qiymətləri müəyyən etmək və yüksək mənfəət əldə etmək üçün bütövlükdə makroiqtisadiyyat üzərində nəzarəti həyata keçirməyə cəhd edirlər. Ona görə antiinhisar tənzimlənməsinə yanaşmalar fərqli cəhətləri ilə xarakterizə olunur. Antiinhisar tənzimlənməsi antiinhisar tədbirlərini və onların həyata keçirilməsi mexanizmlərini əhatə edir. Antiinhisar tənzimlənməsi qiymətlərə, gəlirlərə, mənfəətin bölüşdürülməsinə, makroiqtisadi göstəricilərin dəyişməsinə və s. təsiri ilə özünü göstərir və özünün xronologiyasının dinamikliyi ilə fərqlənir.

Qeyd etmək lazımdır ki, antiinhisar tənzimlənməsinə neoklassik yanaşma bazar strukturlarının əsas meyarlarının, o cümlədən rəqabətin səviyyəsinin müəyyən edilməsinin zəruriliyini önə çəkir. Beləliklə, rəqabət və inhisar probleminə baxışlarının təkamülünü ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- ilk mərhələ təkmil və ya mükəmməl rəqabət modelinin formalaşması, rəqabətli bazarın əsas xüsusiyyətlərinin inkişafı ilə bilavasitə bağlıdır. Burada təkmil rəqabətə dövlətin rəqabət siyasətinin məqsədi kimi baxılır, inhisarçılıq isə azad rəqabətin mənfi tərəfi, bazar iqtisadiyyatının səmərəliliyinə mənfi təsir göstərən struktur kimi qiymətləndirilir;

- növbəti mərhələ rəqabət nəzəriyyəsinin tədricən inkişafına əsaslanır və rəqabətin dinamik xarakter daşıyan proses kimi ifadə edilməsi ilə xarakterizə olunur. Bu prosesdə həm inhisar, həm də rəqabət xüsusiyyətlərinin mövcud olduğu strukturlar fəaliyyət göstərir. Bundan əlavə, inhisarlar özlərinin maliyyə resurslarının əldə olunmasına və istehsal prosesində texniki tərəqqiyə imkan verən, mənfi iqtisadi prosesləri neytrallaşdıran mexanizm kimi müsbət

xüsusiyyətlərə malik olur;

- rəqabət və inhisar haqqında fikirlər, firmaların bazarda əlaqəli şəkildə fəaliyyəti ilə ifadə olunur. Firmaların səmərəli qarşılıqlı əlaqəsi üçün həm rəqabət prosesi, həm də nəticənin iqtisadi baxımdan səmərəliliyi eyni dərəcədə vacib məqamlardan hesab olunur;

- rəqabətlə bağlı əldə olunan nəticələr yeni konsepsiyasının formalaşmasına gətirb çıxarır. Bazarın təkamülünün nəticəsi unikal şəkildə və müəyyən sərhədlərlə müəyyən edilmiş mümkün tarazlıq vəziyyətini ehtiva edir. Bu mərhələdə rəqabətin kəskin xarakter alması səmərəliliyə deyil, bazarın və fəaliyyət göstərərn subyektlərin fəaliyyətinin məhdudlaşmasına səbəb ola biləcəyi ideyası inkişaf etməyə başlayır. Xüsusilə, təbii inhisar və bilik tutumlu sahələr ciddi rəqabətlə üzləşməli olur;

- müasir rəqabət və inhisar siyasəti daha müasir ideyalara əsaslanır və antiinhisar tənzimlənməsinin daha çevik xarakteri müşahidə edilir. Antiinhisar tənzimlənməsi eyni zamanda beynəlxalq xarakter alır, dünya bazarlarında firmaların davranışlarını və fəaliyyətlərini tənzimləmək üçün beynəlxalq institutların yaradılması və fəaliyyət göstərməsi zərurətə çevrilir.

Antiinhisar tənzimlənməsi tədbirləri iqtisadi və inzibati və ya hüquqi metodlardan istifadə etməklə həyata keçirilir. İqtisadi metodlar dövlətə bütövlükdə iqtisadiyyata və onun sahələrinə təsir göstərməyə imkan verir. Bu metodlar dövlət tərəfindən rəqabət mühitinin yaradılması məqsədilə zəruri mexanizmlərin istifadəsi ilə müəyyən edilən makrosəviyyəli tənzimləmələri ehtiva edir. Antiinhisar tənzimlənməsi çərçivəsində sistemli şəkildə tətbiq edilən iqtisadi metodlar iqtisadiyyatın inhisardan çıxarılması və rəqabət mühitinin inkişaf etdirilməsi strategiyaları vasitəsilə həyata keçirilən antiinhisar tənzimlənməsinin mühüm aləti kimi istifadə olunan proqram metoduna əsaslanır. Qeyd etmək vacibdir ki, iqtisadi sistemin xüsusiyyətləri nəzərə alınmaqla antiinhisar tənzimlənməsi birbaşa və dolayı iqtisadi metodların sintezini şərtləndirir.

Aqrar sahədə iqtisadi fəaliyyətin qloballaşması kontekstində beynəlxalq ərzaq bazarı mexanizmlərinin əsas xüsusiyyətləri və qanunauyğunluqları dəyər zəncirinin səmərəliliyinin təmin

edilməsinə imkan verir və antiinhisar tənzimlənməsi üsullarının formalaşmasında əhəmiyyətli rol oynayır. Araşdırmalar göstərir ki, qlobal təchizat zəncirinin antiinhisar tənzimlənməsi, rəqabətin təmin edilməsi ilə bağlı tədbirləri müəyyən edən və həyata keçirən dövlət orqanlarının fəaliyyəti ilə qlobal qida zəncirlərinin, onların transformasiyasının inkişafına və mənfi təsirlərinin çevik şəkildə aradan qaldırmasına istiqamətlənir. Bir sıra ölkələrdə qlobal ərzaq tədarükü zəncirlərinin daxili seqmentinin antiinhisar tənzimlənməsi bu sahədə bir sıra xüsusiyyətləri müəyyən etməyə imkan verir.

"Aqrar sahənin inkişaf səviyyəsi və antiinhisar tənzimlənməsinin səmərəliliyinin qiymətləndirilməsi" adlanan ikinci fəsildə aqrar sahədə istehsal və emal sahələrinin iqtisadi inkişaf səviyyəsi, istehsal və emal müəssisələri arasında inteqrasiya münasibətləri təhlil edilmiş, aqrar sahədə antiinhisar tənzimlənməsinin effektivlik meyarları qiymətləndirilmişdir.

Aqrar sahənin iqtisadi fəaliyyət sahəsi kimi başlıca məqsədi cəmiyyəti ərzaq məhsulları ilə təmin etmək, sənaye sahələrinin ehtiyacları üçün xammal istehsalını həyata keçirməkdir. Kənd təsərrüfatı təbii ehtiyatlar və ətraf mühitlə sıx əlaqədə fəaliyyət göstərməklə istehsalın mövsümiliyi və dövrlərindən asılılığı, həmçinin təbii-iqlim amillərinin yaratdığı risklərlə xarakterizə olunur. İqtisadiyyatın bu mühüm sahəsinin fəaliyyəti, eyni zamanda ərazidə yaşayan əhalinin həyat tərzindən, insanların onunla qarşılıqlı əlaqəsinin nəticələrindən bilavasitə asılıdır.

Aqrar sahənin davamlı inkişafına nail olmaq bir sıra amillərin sistemli şəkildə nəzərə alınmasını tələb edir. Bu çərçivədə iqtisadi, sosial və ekoloji baxımdan kəmiyyət və keyfiyyət dəyişikliklərinə imkan verən mexanizm və vasitələrdən istifadəsi məqsədəuyğunluğunu təsdiq edir. Ümumiyyətlə, kənd təsərrüfatı mürəkkəb sosial-iqtisadi sistem kimi bir tərəfdən, davamlı inkişafın bütün amillərinin tarazlaşlığının təmin olunmasını, digər tərəfdən dövlətin aqrar sahədə həyata keçirdiyi sosial-iqtisadi siyasətin prioritetlərinin əsaslandırılmasını tələb edir.

Qeyd edilən məsələlərin həlli ilə bağlı mövcud vəziyyətin təhlili göstərir ki, son illər aqrar sahədə müsbət tendensiyalar müşahidə edilir. Belə ki, kənd təsərrüfatı məhsulların istehsalının dinamikasına

nəzər saldıqda 2019-cu illə müqayisədə 2023-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə göstəricinin 55,8 faiz, o cümlədən bitkiçilikdə 58,2 faiz, heyvnadarlıqda 53,6 faiz, kənd təsərrüfatı müəssisələrində 89,4 faiz, o cümlədən bitkiçilikdə 2,2 dəfə heyvandarlıqda 67,6 faiz, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında 52,4 faiz o cümlədən bitkiçilikdə 52,8 faiz, heyvandarlıqda isə 52,1 faiz artdığı məlum olur. 2023-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulunun 48,6 faizi bitkiçiliyin 51,4 faizi isə heyvandarlıq sahəsinin hesabına formalaşmışdır. Həmin ildə kənd təsərrüfatı müəssisələrində bitkiçilik sahəsinin xüsusi çəkisi 51,3 faiz, heyvandarlıq sahəsinin xüsusi çəkisi 48,7 faiz, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında isə bitkiçilik sahəsi 48,3 faiz, heyvandarlıq sahəsi isə 51,8 faiz paya sahib olmuşdur. 2023-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun 11,1 faizi kənd təsərrüfatı müəssisələrinin, 88,9 faizi isə fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının payına düşmüşdür (cədvəl 1).

Cədvəl 1

Kənd təsərrüfatının ümumi məhsulunun dinamikası

İllər	Bütün təsərrüfat kateqoriyaları			Kənd təsərrüfatı müəssisələri			Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları		
	Cəmi (mln. manat)	o cümlədən:		Cəmi (mln. manat)	o cümlədən:		Cəmi (mln. manat)	o cümlədən:	
		bitkiçilik məhsulları	heyvandarlıq məhsulları		bitkiçilik məhsulları	heyvandarlıq məhsulları		bitkiçilik məhsulları	heyvandarlıq məhsulları
2019	7836,7	3751,2	4085,5	713,2	321,0	392,2	7123,5	3430,2	3693,3
2020	8428,9	4028,4	4400,5	834,5	438,3	396,2	7594,4	3590,1	4004,3
2021	9163,4	4511,0	4652,4	885,9	467,3	418,6	8277,5	4043,7	4233,8
2022	10984,2	5538,0	5446,2	1094,0	509,2	584,8	9890,2	5028,8	4861,4
2023	12210,6	5933,9	6276,7	1351,1	693,7	657,4	10859,5	5240,2	5619,3
2019-cu illə müqayisədə 2023-cü ildə	155,8	158,2	153,6	189,4	216,1	167,6	152,4	152,8	152,1

Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [113].

Qeyd edilənləri nəzərə almaqla emalı sənayesi məhsulları istehsalının təhlili göstərir ki, 2019-cu illə müqayisədə 2023-cü ildə bütün sənaye məhsullarının faktiki dəyəri 43,2 faiz, emal sənayesinin məhsulu isə 56,3 faiz, emal sənayesinin tərkib hissələrindən olan qida məhsullarının istehsalı 26,9 faiz, işki istehsalı 62,3 faiz, tütün məmulatlarının istehsalı 3,8 dəfə, toxuculuq sənayesinin məhsulu 22,3 faiz, geyim istehsalı 12,1 faiz, dəri və dəridən məmulatların, həmçinin ayaqqabıların istehsalı 13,8 faiz artmışdır. 2019-cu ildə emal sənayesi bütün sənayenin tərkibində 25,1 faiz, 2023-cü ildə 27,4 faiz paya sahib olmuşdur (cədvəl 2).

Cədvəl 2

Emal sənayesi məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat

Göstəricilər	2019	2020	2021	2022	2023	2019-cu illə müqayisədə 2023-cü ildə, faizlə
Bütün sənaye	**46999,2**	**37269,9**	**55229,1**	**86383,4**	**67296,0**	**143,2**
Emal sənayesi	**11793,8**	**11848,3**	**15887,0**	**18116,4**	**18431,2**	**156,3**
Qida məhsullarının istehsalı	3584,8	3884,3	4495,6	4890,9	4547,6	126,9
İçki istehsalı	433,1	427,6	490,9	563,0	703,1	162,3
Tütün məmulatlarının istehsalı	248,9	436,0	677,9	768,9	949,3	3,8 dəfə
Toxuculuq sənayesi	304,3	240,9	369,5	388,6	372,3	122,3
Geyim istehsalı	111,7	112,8	130,0	162,3	125,2	112,1
Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı	21,8	25,8	22,3	25,3	24,8	113,8

Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [116].

Araşdırmalar göstərir ki, aqrar sahənin inkişaf amilləri həm bu amillərin qruplaşdırılması prosesində, həm də onların təsirinin xarakterinin qiymətləndirilməsində davamlı inkişafın müəyyən edilmiş tendensiayalarını və davamlılığın hədəf parametrlərini mümkün qədər nəzərə almağa imkan verir. Ayrı-ayrılıqda amillər, eləcə də onların qarşılıqlı əlaqəsi rəqabətədavamlı və ekoloji təmiz aqrar istehsalın formalaşdırılması sahəsində dövlət proqramlarının strateji məqsədlərinlərinə uyğunluğu ilə özünü göstərir.

Kənd təsərrüfatı və emal sənayesində inteqrasiya münasibətlərinin inkişaf etdirilməsi üçün təşkilati strukturların, ilk növbədə istehsal və texnoloji əlaqələr əsasında formalaşması kimi spesifik xüsusiyyətləri ilə səciyyələnir. İnteqrasiya proseslərinin uğurlu inkişafı, eyni zamanda aqrar-sənaye formasiyalarının inkişafına təkan verən təşkilati və iqtisadi amillərin nəzərə alınmasını tələb edir. Məlumdur ki, emal müəssisələri kənd təsərrüfatı müəssisələrinə münasibətdə öz maraqlarını qorumaq baxımından daha böyük imkanlara malikdir. Bu, bəzi hallarda kənd təsərrüfatında istehsal olunan məhsulların emal sənayesi və ticarət müəssiələrinin xeyrinə yenidən bölüşdürülməsinə gətirib çıxarır.

Qeyd edilənlər baxımından emal sənayesi müəssisələrinin əsas iqtisadi göstəricilərinə nəzər saldıqda fəaliyyət göstərən müəssisələrin sayında 2019-cu illə müqayisədə 2023-cü ildə 57,1% artım baş verdiyi məlum olur. Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı da 36,7% artmışdır. Müqayisə olunan dövrdə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri 56,3% artmaqla yanaşı, sənaye istehsalı indeksi də dinamik olaraq yüksəlmişdir. Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində emal sahələrinin payı 21,0-31,8% aralığında dəyişmişdir (cədvəl 3).

Aqrar sahədə fəaliyyət göstərən inteqrasiya olunmuş strukturların fəaliyyətinə nəzər saldıqda məlum olur ki, onların uğurlu fəaliyyəti üçün bəzi emal sənayesi sahələrinin xammal tədarükçüsü olan kənd təsərrüfatı istehsalçısının dəstəklənməsinə yönəlmiş dəstək tədbirləri tələb olunur. Belə tədbirlərdən biri kənd təsərrüfatı məhsulları istehsalçıları arasında əməkdaşlıq prosesinə, o cümlədən kredit kooperasiyasına dövlət dəstəyi ilə bağlıdır. Ona görə kənd

təsərrüfatında istehsalın sabitləşməsinə nail olmaq, təkrar istehsalı həyata keçirmək və genişləndirmək üçün kreditlərin əldə edilməsinə əlverişli şərait yaratmaq hazırda ən vacib məsələlərdəndir.

Cədvəl 3

Emal sənayesi ilə məşğul olan müəssisələrinin işinin əsas göstəriciləri

Göstəricilər	2019	2020	2021	2022	2023	2019-cu illə müqayisədə 2023-cü ildə, %-lə
Fəaliyyət göstərən müəssisələrin sayı, vahid	2330	2515	2777	3130	3660	157,1
dövlət	124	117	110	103	102	82,3
qeyri-dövlət	2206	2398	2667	3027	3558	161,3
Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər	19842	22957	24898	25663	27123	136,7
Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, milyon manat	11793,8	11848,3	15887,0	18116,4	18431,2	156,3
Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə)	111,5	110,6	119,6	104,3	110,8	99,4
Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə	25,1	31,8	28,8	21,0	27,4	x
Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, faizlə	21,0	28,8	23,2	15,8	22,5	x

Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [120].

Bu baxımdan konkret olaraq Prime Cotton MMC - Saatlı Pambıq emalı zavodunun məlumatlarının təhlili göstərir ki, 2019-cu illə müqayisədə 2023-cü ildə müəssisənin mənfəəti 4,6% artmışdır. İstehsal xərclərinin müvafiq dövrdə 6,3% artması ilə əlaqədar olaraq rentabellik səviyyəsi 2,0 bənd azalmışdır. Məlumatlardan aydın olur ki, alınan xammalın natural ifadədə həcminin 6,3%, hər tonunun orta alış qiymətinin 23,1% artması ilə əlaqədar olaraq xammalın dəyəri 30,8% səviyyəsində yüksəlmişdir. Emal nəticəsində əldə olunan məhsulların satış dəyərinin 21,7% artması müəssisənin gəlirlərinə də müsbət təsir etmişdir (cədvəl 4).

Cədvəl 4

Prime Cotton MMC - Saatlı Pambıq emalı zavodunun əsas iqtisadi göstəriciləri

Göstəricilər	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2019-cu illə müqayisədə 2023-cü ildə, %lə**
Alınan xammal, min ton	24000	24300	24600	25000	25500	106,3
Ümumi məhsul (alınan xammalın dəyəri), min man.	15 600, 0	15 795, 0	17 264, 1	20 000, 0	20 400,0	130,8
I növ						
man.	14 430, 0	14 610,4	15 969,3	18 500, 0	18 870, 0	130,8
min ton	22 200	22 478	22 813	23 125	23 588	106,3
II növ						
man.	936 000	876 623	958 158	1 110 000	1 132 200	121,0
min ton	1 440	1 458	1 480	1 500	1 530	106,3
III növ						
man.	234 000	236 925	258 962	300 000	306 000	130,8
min ton	360	365	370	375	383	106,3
Xammalın hər tonunun orta alış qiyməti, man.	650	650	700	800	800	123,1

Cədvəl 4-ün davamı

İstehsal xərcləri, mln. man.	4 800, 0	4 900, 0	4 900,0	5 000,0	5 100,0	106,3
Emal olunmuş məhsulun hər tonunun orta satış qiyməti, man						
Çiyid	250	255	263	270	272	108,8
Mahlıc	2210	2210	2295	2550	2550	115,4
Mənfəət, mln man	3 936,0	4 008,4	3 782,9	4 010,0	4 116,7	104,6
Rentabellik səviyyəsi, %-lə	16	16	15	14	14	X
Satılan məhsul						
Çiyid, ton	12 480	12 636	12 792	13 000	13 260	106,3
Mahlıc, ton	9 600	9 720	9 840	10 000	10 200	106,3
Satış dəyəri, mln man	24 336,0	24 703,4	25 947,1	29 010,0	29 616, 7	121,7

Mənbə: Cədvəl sorğu əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Göstərilənlərdən aydın olur ki, aqrar sahədə inteqrasiya proseslərinin uğurlu inkişafı müxtəlif amillərin nəzərə alınmasından asılıdır. Həmin amillərin inteqrasiya proseslərinin inkişafına təsir dərəcəsi ölkədəki makro və mikro iqtisadi vəziyyətlə, kənd təsərrüfatı və emal sənayesi subyektlərinin fəaliyyətinin əlaqələndirilməsi ilə müəyyən edilir.

Aqrar sahədə antiinhisar tənzimlənməsinin iqtisadi səmərəlilik meyarlarının müəyyən edilməsi və qiymətləndirilməsinin zəruriliyi müasir iqtisadi inkişafın əsas şərtlərinə cavab verən antiinhisar tənzimləmə institutlarının yaradılmasını şərtləndirir. Qeyd edilənlər onu göstərir ki, antiinhisar tənzimlənməsini həyata keçirən qanunvericiliyin effektivliyinin qiymətləndirilməsi kompleks yanaşma tələb edir. Bu baxımdan effektivlik meyarlarının və imkanlarının qiymətləndirilməsi əsasında antiinhisar qanunvericiliyi normalarının müəyyən edilməsi vacib şərtlərdən hesab edilir.

Qeyd edilənlərdən məlum olur ki, antiinhisar qanunvericiliyi dövlətin iqtisadi tənzimlənmə siyasətinin mühüm alətidir və antiinhisar qanunvericiliyində edilən dəyişikliklər, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinin qarşılıqlı iqtisadi fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur.

Üçüncü fəsil **aqrar sahədə inhisarçılıq fəaliyyətinin aradan qaldlrılması və antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsinə** həsr edilir. Bu fəsildə istehsal və emal sferasında inteqrasiya münasibətlərinin inkişafı məsələləri, aqrar sahədə rəqabət mühitinin yaxşılaşdırılması, aqrar təsərrüfatçılıq subyektlərinin rəqabət qabiliyyətlilik strategiyasının hazırlanması və aqrar sahədə antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri öz əksini tapır.


Aqrar-sənaye inteqrasiyası təkrar istehsal prosesinin təmin etməklə maliyyə, maddi-texniki resurslar, kənd təsərrüfatı məhsullarının istehsal həcmi, satış qiymətləri, tədarük kanalları kimi mühüm məsələləri əhatə edir. İnteqrasiya prosesində maddi və maliyyə axınlarını idarə edilməsi ilə yanaşı, sosial problemlərin həlli imkanları yaradır. Aqrar sahədə inteqrasiyanın forma və mexanizmləri, xüsusilə geniş təkrar istehsalın əsas təminatçısı kimi dövlətin rolunu əsaslı şəkildə dəyişdirir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının satışında dövlət orqanlarının iştirakının əhəmiyyətli dərəcədə aşağı salınması bilavasitə inteqrasiya prosesi ilə əlaqədardır.

Araşdırmalar göstərir ki, aqrar sahədə inteqrasiya prosesinin genişləndirilməsi ilə bağlı kompleks tədbirlərə ehtiyac var. Bu istiqamətdə iqtisadi strategiya və istehsalın inteqrasiyasına dövlət dəstəyi, ilk növbədə yüksək texnologiyaların tətbiqi, məhsul keyfiyyətinin yaxşılaşdırılması və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi kimi mühüm məsələlərin həllini nəzərdə tutur. Son illər respublikamızda bu məqsədlə bir sıra tədbirlər görülmüş, o cümlədən aqrar istehsalın dəstəklənməsi məqsədilə müxtəlif məhsul növləri üzrə subsidiya müəyyən edilmişdir.

Məhsul subsidiyalarının müəyyənləşdirilməsi dövlət dəstəyinin tərkib hissəsi olmaqla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının emal müəssisələrinin qiymətlərin müəyyənləşdirilməsindəki inhisarçı mövqeyinin zəiflədilməsi,

qiymətlərlə bağlı itkilərin azaldılması məqsədi daşıyır. Qeyd edilən istiqamətdə pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlərin Kənd Təsərrüfatı Nazirliyi ilə razılığı əsasında müxtəlif illərdə emal sənayesi müəssisələrinə satdıqları məhsulların qiymətinin artırılması nəzərdə tutulmuşdur.

Xam pambığın hər tonuna görə müəyyən edilmiş orta alış qiyməti ilə Prime Cotton MMC – Saatlı Pambıq emalı zavodu tərəfindən alınan xammalın orta alış qiymətinin müqayisəsi göstərir ki, 2020-ci ildə 2019-cu ilə nisbətən qiymətlərin səviyyəsində dəyişiklik baş verməmişdir. 2021-ci ildə əvvəlki illə müqayisədə respublika üzrə xam pambığa görə müəyyən edilmiş alış qiyməti 17,0%, 2022-ci ildə 7,1% artmış, 2023-cü ildə isə dəyişiklik qeydə alınmamışdır. Prime Cotton MMC – Saatlı Pambıq emalı zavodu tərəfindən alınan xammalın orta alış qiymətinin dinamikasına nəzər saldıqda əvvəlki illə müqayisədə 2021-ci ildə 7,7%, 2022-ci və 2023-cü illərdə 14,3% artım müşahidə edilir (qrafik).



Qrafik. Xam pambığın orta alış qiymətinin müqayisəli dinamikası, %-lə
Mənbə: Qrafik Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Prime Cotton MMC – Saatlı Pambıq emalı zavodunun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi, emal müəssisəsi tərəfindən alınan xam pambığın qiymətinin artımında daha dinamik vəziyyət baş vermişdir. Bu isə

Prime Cotton MMC – Saatlı Pambıq emalı zavodu tərəfindən alınan məhsulların keyfiyyəti ilə əlaqələndirmək olar. Belə ki, statistik məlumatların təhlili göstərir ki,daha çox I növ pambıq alınmış, IV növ pambıq alışı həyata keçirilməmişdir (cədvəl 4). Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi, aqrar sahədə inteqrasiya olunmuş strukturların strateji inkişafının başlıca amillərindən biri olmaqla əlavə stimullaşdırıcı vasitəyə çevrilir. Eyni zamanda aqrar-sənaye inteqrasiyası yalnız yerli istehsalçılara dəstək siyasəti deyil, həmçinin ərzaq və iqtisadi təhlükəsizliyinin təmin edilməsi strategiyasının tərkib hissəsidir və aqrar iqtisadiyyatın dayanıqlı inkişafının əsası kimi çıxış edir.

Kənd təsərrüfatında istehsalın sabitləşdirilməsi və səmərəli inkişafının zəruri şərtlərindən biri olan dövlətin iqtisadi strategiyasının ən mühüm tərkib hissəsini aqrar siyasət təşkil edir. Müasir iqtisadi şəraitdə aqrar siyasətin daha təkmil konsepsiyalarının və prioritetlərinin müəyyənləşdirilməsi aqrar iqtisadiyyatın ən aktual problemlərindəndir. Bu, öz növbəsində kənd təsərrüfatı müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilmisini, bütövlükdə aqrar sahənin dayanıqlığını nəzərdə tutur.

Hazırda iqtisadiyyatın müxtəlif sahələrində inhisarçılıq meyllərinin güclənməsi, qlobal miqyasda ən mürəkkəb sosial-iqtisadi problemlərdən hesab olunur. İnhisarçılıq, iqtisadi fəaliyyətlə bağlı bir çox ziddiyyətlərin və problemlərin başlıca səbəbi kimi çıxış etməklə həm istehlakçılar, həm də istehsalçılar üçün təhlükə yaradır. Bu baxımdan inhisarçılığın qarşısının alınması və təsirinin azaldılması məqsədilə antiinhisar tənzimlənməsinə ehtiyac yaranır. Dövlət tərəfindən müəyyənləşdirilən antiinhisar tənzimlənməsi siyasəti, cəmiyyətin rifahını təmin edən mühitin yaradılmasına xidmət edir, ölkənin bütün iqtisadi sisteminin normal fəaliyyətini təmin edir, müxtəlif təsərrüfatçılıq subyektlərini inhisarların mənfi təsirlərindən qoruyur və rəqabətqabiliyyətli iqtisadiyyatin formalaşdırılmasına zəmin yaradır. Bu baxımdan, antiinhisar tənzimlənməsini nəzərdə tutan qanunvericiliyin tətbiq olunması və bu prosesdə səmərəli nəticələrin təmin edilməsi antiinhisar siyasətinin davamlı olaraq təkmilləşdirilməsini nəzərdə tutur. Həmçinin dövlət bu istiqamətdə müvafiq tədbirlər həyata keçirməklə antiinhisar tənzimlənməsinin

keyfiyyətini yüksəltməyi, subyektlərin fəaliyyətini stimullaşdırmağı, həmçinin müxtəlif fəaliyyət sahələrini haqsız rəqabətdən qorumaqla sabit iqtisadi artımı təmin etməyi başlıca hədəflər kimi müəyyən edir.

NƏTİCƏ

Aqrar sahədə antiinhisar tənzimlənməsinin effektivliyinin və onun həyata keçirilməsi mexanizminin tədqiqi bir sıra nəticələr çıxarmağa əsas verir. Araşdırmalar göstərir ki, rəqabət mühitinin formalaşması şəraitində aqrar iqtisadiyyatın antiinhisar tənzimlənməsi sahəsində yeni yanaşmaların tətbiqi, onun elmi-metodoloji aspektlərinə əsaslanır. Dövlət rəqabət siyasətinin əsası kimi məhz antiinhisar tənzimlənməsi ilə bağlı strategiyanı müəyyənləşdirir. Belə qənaətə gəlmək mümkündür ki, rəqabət və inhisar daim bir-birinə qarşı duran və bazar münasibətlərinin tərkib elementləri kimi özünü göstərir.

İnhisarçılıq, iqtisadi inkişafın bütün mərhələlərii üçün xarakterikdir və demək olar ki, rəqabət və istehsalın təmərküzləşməsi nəticəsində yaranır. İnhisarçılığın yüksək səviyyəsi istehsalın ixtisaslaşması ilə xarakterizə olunur. İnhisarçılıq fəaliyyəti təsərrüfat subyektlərinin fəaliyyətinə xas olmaqla bazar münasibətlərinin formalaşması xüsusiyyətləri ilə əlaqələndirilir. Tədqiqatın əsas nəticələri olaraq antiinhisar tənzimlənməsi siyasətinin formalaşması və həyata keçirilməsinin ən vacib aşağıdakı prinsiplərini qeyd etmək olar:

- inhisarçılıq fəaliyyətinin əsas xüsusiyyəti iqtisadi subyektlərin və onların nəzarət etdiyi bazarların ölçüsü ilə deyil, subyektlərin inhisarçılıq məqsədlərinin və onları həyata keçirilməsi üçün müvafiq bazar gücünün olması ilə müəyyən olunur;
- antiinhisar tənzimlənməsində dövlətin rolu inhisarçılığın qarşısının alınması və onun təsirinin yumşaldılması ilə yanaşı, bazarda rəqabəti təşviq edən tədbirlər sistemini yaratmaq, subyektlərin mövcud qanunvericilik çərçivəsində fəaliyyətini dəstəkləmək məsələləri ilə ifadə olunur.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, aqrar sahədə rəqabəti inkişaf etdirmək və inhisarçılığın mənfi nəticələrinin qarşısını almaq məqsədi ilə həyata keçirilən dövlətin antiinhisar tənzimlənməsinin səmərəli şəkildə həyata keçirilməsinə və

tənzimləmənin effektivliyinə, mövcud sosial-iqtisadi şəraitdə istifadə olunan metodların adekvatlığı ilə nail olmaq olar. Bu nöqteyi-nəzərdən istifadə edilən metodların müxtəlif aspektləri obyektiv iqtisadi qanunlara əsaslanır.

İqtisadi təmərküzləşməyə dövlət nəzarəti, inkişaf etmiş rəqabət mühitində aqrar təsərrüfatçılıq subyektlərinin normal fəaliyyətinin ən mühüm şərtlərindən biridir. Eyni zamanda, kənd təsərrüfatı məhsulları bazarlarının strukturunun və rəqabət mühitinin təhlili göstərir ki, subyektlərin bazara daxil olması üçün iqtisadi və inzibati maneələrin müəyyən edilməsi və onların aradan qaldırılması, istehsalçıların bazar potensialının reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Aqrar sahədə inhisarçılığın aradan qaldırılması və təsirinin azaldılması vasitələrinin müəyyən edilməsi, eləcə də bazarların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün zəruri şərtlər sırasında istehsal, satış və istehlak sahələrində iqtisadi vəziyyətin stabilliyinin təmin olunmasını xüsusi qeyd etmək olar. Bu məqsədlə kənd təsərrüfatı məhsulları bazarının keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin müəyyən edilməsi, rəqabət mühiti vəziyyətinin qiymətləndirilməsi, tələb və təklif tarazlığı səviyyəsinin müəyyən edilməsi və antiinhisar qanunvericiliyinin müvafiq müddəalarının tətbiqi tənzimlənmə istiqamətlərinin seçilməsi vacibdir.

Məlum olduğu kimi, kənd təsərrüfatı subyektlərinin rastlaşdığı əsas problemlərdən biri də emal sənayesi müəssisələrinin xüsusilə qiymətlərin müəyyənləşdirilməsindəki inhisarçı mövqeyi ilə bağlıdır. Bu, emal müəssisələrinin bir tərəfdən təsərrüfatçılıq subyektlərinin fəaliyyətinə, rəqabət mühitinə və digər tərəfdən bazar münasibətlərinin ayrı-ayrı iştirakçılarına təsir etmək imkanı ilə bağlıdır. Bazar üstünlüyü, emal müəssisələrinə qiymətlərin müəyyənləşdirilməsi konktekstində hakim mövqedən sui-istifadə hallarına səbəb olur. Bu sahədə mənfi meyllərin aradan qaldırılması antiinhisar orqanlarının fəaliyyətində prioritet təşkil edir. Ona görə də haqsız rəqabətin qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində antiinhisar tənzimlənməsinin yerli və beynəlxalq hüquq normalarından istifadə etməklə normativ-hüquqi bazasının təkmilləşdirilməsi vacib məqamlardan hesab edilir.

Beləliklə, aparılmış tədqiqata əsaslanaraq aqrar sahədə dövlətin rəqabət siyasətinin, o cümlədən antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri sırasında aşağıdakı tədbirləri məqsədəuyğun hesab etmək olar:

1. Aqrar iqtisadiyyatda inhisarçılığın qarşısının alınması və təsirinin yumşaldılması, həmçinin kənd təsərrüfatı məhsulları bazarında rəqabətin inkişafı tədbirləri mürəkkəb xarakteri ilə səciyyələnməklə müxtəlif dövlət qurumlarının əlaqələndirilmiş fəaliyyətlərini əhatə edir. Şübhəsiz ki, struktur dəyişiklikləri şəraitində antiinhisar tədbirləri, ilk növbədə bazarlarda rəqabətin inkişafına mühüm təsir göstərə bilər. Bu, nəticə etibarilə bazarların fəaliyyətinin səmərəliliyini yüksəltməkdə, istehsal potensialından daha səmərəli istifadədə, rəqabət mühitini yaxşılaşdırmaqda, inteqrasiya proseslərinin genişləndirilməsi nəticəsində yeni inhisar strukturlarının yaradılmasının qarşısının alınmasında mühüm rol oynaya bilər. Belə tədbirlərə kənd təsərrüfatı məhsulları bazarlarında bərabərrəqabət imkanlarının yaradılmasını, inhisarçı subyektlərin fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsini, dövlət və bələdiyyə ehtiyacları üçün məhsulların tədarükü zamanı rəqabət prinsiplərinin nəzərə alınmasını və antiinhisar qanunvericiliyinin tələblərinə əməl olunmasını qeyd etmək olar.

2. Araşdırmalar göstərir ki, aqrar təsərrüfatçılıq subyektlərinin dəstəklənməsi istiqamətində antiinhisar orqanlarının üzərinə müəyyən işlər düşməklə bu sahədə kifayət qədər potensial mövcuddur. Bu çərçivədə hər bir istehsal sahəsinin xüsusiyyətləri nəzərə alınmaqla, mövcud ehtiyatlara əsaslanan, aşağı kapitaltutumlu və eyni zamanda, iqtisadi səmərəlilik baxımından daha perspektivli sahələrin formalaşdırılması dövlət dəstəyinin vacib istiqamətlərindən hesab oluna bilər. Eyni zamanda, qeyd etmək lazımdır ki, bütün istehsalçılara bu və ya digər formada dövlət dəstəyinin göstərilməsi demək olar ki, praktiki olaraq qeyri-mümkün olmasa da bu istiqamətdə sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun tədbirlərin həyata keçirilməsi vacibdir.

3. Rəqabət mühitinin formalaşdırılması və inkişafı aqrar sahədə inteqrasiya olunmuş strukturlarının səmərəliliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq

rəqabət rəqabətqabiliyyətli subyektlərin inkişaf etdirilməsi, ilk növbədə onların istehsal etdiyi məhsulların keyfiyyətinin yüksəldilməsini tələb edir. Daha yüksək keyfiyyət səviyyəsinə çatmaq və yüksək rəqabət qabiliyyətinə nail olmaq inteqrasiya olunmuş istehsal və emal sənaye müəssisələrin qarşılıqlı münasibətlərinin inkişafına da müsbət təsir edir. Çünki yüksək keyfiyyətli xammal istehsalçılara daha yüksək gəlir əldə etməyə imkan yaratmaqla emal sənayesinin gəlirlərinə də müsbə təsir göstərir və dolayı yolla keyfiyyətin yüksəldilməsini təşviq edir.

4. Hazırda aqrar iqtisadiyyatda inhisarlaşma meyllərinin, eləcə də inhisarlaşdırılmış kənd təsərrüfatı məhsulları məhsul bazarlarının təmərküzləşmə səviyyəsinin azaldılması ədalətli rəqabətin formalaşdırılması baxımından iqtisadi inkişafın əsas strateji istiqamətlərindəndir. Bu əsasda rəqabət və antiinhisar tənzimlənməsi haqqında qanunvericiliyinin müvafiq müddəaları nəzərə alınmaqla, prioritet istiqamətlər kimi aşağıdakı təklifləri ümumiləşdirmək olar: bazarda özünə xüsusi yer tutan prioritet istehsal sahələrinin və konkret inhisarlaşdırılmış bazarların müəyyən edilməsi; emal sənayesinin inhisarçı təsirinin azaldılması ilə bağlı istiqamətlərinin formalaşdırılması; bazarda sərbəst və rəqabət mühitində fəaliyyətlə bağlı maneələrin azaldılması prioritetlərinin müəyyən edilməsi; bazarların coğrafi sərhədlərinin genişləndirilməsi ehtiyatlarının müəyyən edilməsi; haqsız rəqabətin qarşısının alınmasına qanunvericilik tədbirlərinin həyata keçirilməsi.

5. Müasir şəraitdə kənd təsərrüfatı məhsulları istehsalı və emalı sənayesində təmərküzləşmənin tənzimlənməsi və antiinhisar nəzarəti üçün hüquqi, təşkilati və iqtisadi əsasların yaradılması aktuallığını qoruyur. İqtisadi proseslərin inkişaf tempi nəzərə alınmaqla bazar münasibətlərinin formalaşma tendensiyalarına əsaslanaraq, qeyd etmək olar ki, kənd təsərrüfatı məhsulları bazarlarında rəqabətin güclənməsi və inhisarçılıq təzahürlərinin baş verməsi qaçılmazdır. Ona görə antiinhisar tənzimlənməsinin əhəmiyyəti artmaqdadır. Göstərilənləri nəzərə alaraq, aqrar sahədə antiinhisar tənzimlənməsinin səmərəliliyini təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilə bilər:

- aqrar iqtisadiyyatda inhisarçılıq hallarının qarşısının alınması,

bütövlükdə dövlət tənzimlənməsinin elementi olduğu üçün institusional yönümü təkmilləşdirmələrdə dövlətin köməyindən istifadə labüddür və sosial, təşkilati, iqtisadi və digər komponentləri əhatə etməlidir;

- antiinhisar tədbirlərinin, xüsusən təmərküzləşmənin yüksək olduğu sahələrdə sistemli şəkildə aparılmasına ehtiyac var;
- müəyyən edilmiş qanunauyğunluqlar əsasında rəqabət mühitinin yaxşılaşdırılması üçün istehsalçıların dəstəklənməsi xüsusi diqqət yetirilməsi vacibdir;
- tələb və təklif arasındakı əlaqə əsasında qiymətqoymada, eləcə də istehsal və emal müəssisələri arasında qiymətlərin müəyyənləşdirilməsində qarşılıqlı maraqların nəzərə alınmasının antiinhisar orqanlarının nəzarət funksiyalarına daxil edilməsi məqsədəuyğundur;
- inhisarçılıq meyllərinin nəticələrini minimuma endirmək üçün antiinhisar tənzimlənməsində etibarlı hüquqi dəstəyin və sosial tənzimləyici mexanizmlərin tətbiqi mühüm məsələlərdən hesab edilə bilər.

6. Məlum olduğu kimi, emal sənayesi və kənd təsərrüfatı müəssisələrinin qarşılıqlı fəaliyyətinin tənzimlənməsinin effektivliyinin kifayət səviyyədə olmadığı şəraitdə inhisarlaşmasının artması təhlükəsi qaçılmazdır. Müəssisələr arasında iqtisadi maraqlar, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçılarının inhisarçı təsirdən qorunmasını və rəqabətin inkişafını zəruri edir. Bununla əlaqədar olaraq, aqrar sahədə inhisarçı qiymətlərin müəyyən edilməsinə və qiymətqoymada inhisarçılığın qarşısının alınmasına yönəlmiş müvafiq normativ-hüquqi əsasların yaradılması vacibdir. Aqrar məhsullar bazarlarında rəqabətə maneələrin mövcudluğu, bəzi hallarda qanunvericilikdə müəyyən boşluqlarla bağlı olur. Belə şəraitdə bazarların fəaliyyətinə antiinhisar təsirinin gücləndirilməsi bir tərəfdən inhisarçı subyektlərin fəaliyyətinə nəzarəti və qiymətlərin tənzimlənməsini, digər tərəfdən istehsalçı və istehlakçıların maraqlarında tarazlığı təmin etmək məqsədilə rəqabətin inkişafını nəzərdə tutur. Qiymət tənzimlənməsi ilə rəqabət mühitinin yaxşılaşdırılması və azad rəqabətin təmin olunması zərurətini, həmçinin kənd təsərrüfatı və emal sənaye məhsulları arasında

gəlirlərin fərqinin davamlı artması ilə də əlaqələndirmək olar.

7. Aqrar sahədə müxtəlif sahələrin inhisardan çıxarılması və rəqabətin təmin olunması, inteqrasiya proseslərinə əsaslanan irimiqyaslı yeni istehsal sahələrinin yaranması ilə nəticələnir. İnteqrasiya proseslərinin genişlənməsi, nəticə etibarilə rəqabətin güclənməsinə səbəb olsa da bəzi hallarda inhisarçılığın artmasına gətirib çıxarır. Belə şəraitdə antiinhisar tənzimlənməsinin rolu davamlı olaraq artır. Eyni zamanda qeyd etmək lazımdır ki, inhisarlaşma, inteqrasiya proseslərinə üstünlük verilməsini tələb edir, çünki aqrar istehsal sahələrinin inkişafının əsas istiqamətlərindən biri məhz, inhisarçı müəssisələrdə istehsalın səviyyəsini artırmaqdan ibarət olur. Bu, əlverişsiz təbii-iqlim şəraiti, ilkin sosial-iqtisadi şərtlərin yetərsizliyi şəraitində daha xarakterikdir. Bütün bunlar, əsas məhsul növlərinin qiymətlərinə nəzarətin gücləndirilməsini, dövlət tənzimlənməsinin belə halların nəzərə alınmasını önə çəkir.

8. Qanunvericilik əsasında emal sənayesi müəssisələrinin inhisarçı mövqeyinin yumşaldılması məqsədilə antiinhisar tənzimlənməsi tədbirlərindən istifadə, təcrübədə geniş istifadə olunan istiqamətlərdəndir. Digər istiqamət kənd təsərrüfatı xammalının istehsalından son məhsulun istehsalına və satışınadək texnoloji zənciri əhatə edən inteqrasiya olunmuş strukturların formalaşdırılması prosesinin intensivləşdirilməsidir. İnteqrasiya olunmuş strukturların yaradılması, ilk növbədə razılaşdırılmış qiymətlərin tətbiqi ilə emal müəssisələrini antiinhisar qanunvericiliyinin əhatə dairəsindən çıxarır. İnhisarçı müəssisələrinin fəaliyyətinə nəzarət isə rəqabət şəraitini yaxşılaşdırmağa və inteqrasiya proseslərini dərinləşdirməyə xidmət edir.

9. Kənd təsərrüfatı və emal müəssisələrinin antiinhisar tənzimlənməsinin effektivliyinin yüksəldilməsi rəqabət mühitinin təmin edilməsi meyarlarının nəzərə alınmasını tələb edir. Araşdırmalar göstərir ki, inhisarlaşma səviyyəsinin daha obyektiv qiymətləndirilməsi üçün inteqrasiyanın təsirini və bir-biri ilə əlaqəli subyektlərin fəaliyyətini qiymətləndirmək zəruridir. Bu baxımdan aqrar istehsalının səmərəliliyini əhəmiyyətli dərəcədə artırmağa imkan verən antiinhisar tənzimlənməsi tədbirlərin həyata keçirilməsi inhisarçılıq meyllərinin azalmasına, inhisarçı qiymətlərinin aradan

qaldırılmasına, kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələri arasında mübadilə prosesinin sürətlənməsinə və rəqabət qabiliyyətinin yüksəlməsinə imkan verə bilər.

Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir.

1. Osmanova G.R. Aqrar sənaye sferasında inteqrasiya münasibətlərinin inkişaf mexanizmi. // – Bakı: Azərbaycan Aqrar Elmi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin elmi-nəzəri jurnalı, 2016, №4 (243) – s. 117-119.
2. Osmanova G.R. Aqrar sferada inhisarçılığın aradan qaldırılmasının hüquqi aspektləri. // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universitetinin Elmi Əsərləri, 2019, №3. – s. 132-134.
3. Osmanova G.R. Aqrar sferada iqtisadi subyektlərin qarşılıqlı əlaqələrinin inkişaf mexanizmi // – Gəncə: "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, 2021, №1 (5). – s. 127-131
4. Osmanova G.R. Kənd təsərrüfatında rəqabətin təmin edilməsi və inhisarçılığın aradan qaldırılması yolları // – Gəncə "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, 2021, №2 (6). – s. 33-36
5. Эффективность регулирования монополистической деятельности в аграрной сфере // – Москва: Экономика и предпринимательство, 2022, №3 (140). – s. 658-661
6. Osmanova G.R. Aqrar sahədə inhisarçılığın azaldılmasına yeni yanaşmaların əsas cəhətləri. // – Bakı: Qərbi Kaspi Universisteti, Elmi Xəbələr, İctimai və Texniki elmlər seriyası, 2025, № 2.
7. Osmanova G.R. Vahid Amrahov, Nijad Narimanov, Sabina Hajiyeva, Narmin Mirzazadeh, Tarana Ismayilova, Development of Effective Financial Strategies for Long-Term Economic Viability // – Amman: International Journal of Accounting and Economics Studies, 2025. – s. 658-661
8. Osmanova G.R. Aqrar sferada innovasiyalardan istifadənin rəqabət qabiliyyətli istehsalda rolu // – Gəncə: Azərbaycanda Aqrar Sığortanın tətbiqi: problemlər və imkanlar, 15 mart, 2019. – s. 90-91.
9. Osmanova G.R. Aqrar sahə subyektlərinin rəqabət potensialının yaxşılaşdırılması istiqamətləri // – Baku: Azerbaijan State Agrar University ANAS Department of Biology and Medicine

Ege University, AGRO İnternational conference on Agriculture, June 04-06.2022. – s. 420-421.

10. Османова Г.Р. Институциональные основы антимонополной политики в аграрной сфере // – Рязань: Материалы XI Международной научно-практической конференции, «Научные теории иразработки в условиях глобалных перемен: переделы и возможности, 28 июля 2023 – s. 297-299

11. Osmanova G.R. Aqroemal sənayesində inhisarçılığın aradan qaldırılması istiqamətləri // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universiteti.



Dissertasiyanın müdafiəsi 15 oktyabr 2025-ci il tarixdə 14^{00}-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.09.2025

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47734 işarə

Tiraj: 100